*Əl işdən soyumaz, ürək arzudan...*



# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

*1933-cü ildən nəşr olunur*

№ 84-85
(7133-7134) ❁ Cümə, 15 noyabr 2013-cü il ❁ Qəzet ayda 4 dəfə çıxır ❁ Qiyməti 40 qəpik

## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

Bakının Neftçilər prospektində, Hökümət evinin qarşısındakı ərazidə ikimərtəbəli yeraltı avtomobil dayanacağı istifadəyə verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dayanacaqda yaradılan şəraitlə tanış olmuşdur.

❁ ❁ ❁

Paytaxtın Xətai rayonundakı 1 nömrəli çörək zavodu işə salınmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev zavodun açılışında iştirak etmişdir.

❁ ❁ ❁

Prezident İlham Əliyev Bakının Əhmədli yaşayış massivindəki Rahib Məmmədov küçəsində yenidən qurulan parkda yaradılmış şəraitlə tanış olmuşdur.

❁ ❁ ❁

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yaponiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfirini diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

❁ ❁ ❁

Dövlətimizin başçısı İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Filip Lefortu qəbul etmişdir.

❁ ❁ ❁

Azərbaycan Prezidenti İlham Əliyev Vatikan dövlətinin mədəniyyət üzrə pontifik şurasının prezidenti kardinal Canfranko Ravazinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

❁ ❁ ❁

Prezident İlham Əliyev ATƏT-in Minsk qrupu həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi ilə görüşmüşdür.

❁ ❁ ❁

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Braziliya—Azərbaycan dostluq qrupunun sədri, Deputatlar Palatasının müvəkkili Klaudio Kajadonu qəbul etmişdir.

**Miri RƏHİMOV.**

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına rəsmi səfəri

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 11-də Türkiyə Respublikasına rəsmi səfərə yola düşmüşdür.

Dövlət başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.

Türkiyə Respublikasının Prezidenti Abdullah Gül və xanımı Hayrünnisə Gül Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı böyük hörmət və ehtiramla qarşılamışlar.

Hərbi orkestrin ifasında Azərbaycanın və Türkiyənin dövlət himnləri səslənmişdir.



## Azərbaycan və Türkiyə prezidentlərinin təltif olunması mərasimi



Noyabrın 12-də Çankaya köşkündə Azərbaycan və Türkiyə prezidentlərinin təltif edilməsi mərasimi olmuşdur.

Tədbirdə əvvəlcə Azərbaycanın və Türkiyənin dövlət himnləri səsləndirildi.

Sonra Prezident İlham Əliyevin "Dövlət nişanı" ordeni ilə təltif olunmasına dair Türkiyə Nazirlər Kabinetinin qərarı və Prezident Abdullah Gülün "Heydər Əliyev" ordeni ilə təltif edilməsi barədə Azərbaycan Prezidentinin Sərəncamı oxundu.

Türkiyə Prezidenti "Dövlət nişanı" ordenini Prezident İlham Əliyevə təqdim etdi.

Azərbaycan Prezidenti "Heydər Əliyev" ordenini Türkiyə Prezidentinə təqdim etdi.

Türkiyə Prezidenti Abdullah Gül və Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə çıxış etdilər.

## Prezident İlham Əliyev Anıtqəbiri ziyarət etmişdir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərəyə - Anıtqəbirə gəlmişdir.

Dövlət başçısı böyük Atatürkün məzarını ehtiramla ziyarət etdi.

Prezident İlham Əliyev Mustafa Kamal Atatürkün məzarı önünə əklil qoydu. Türk dünyasının böyük oğlunun əziz xatirəsi yad edildi. Sonra xatirə şəkilləri çəkdirildi. Dövlət başçısı Xatirə kitabına ürək sözlərini yazdı.

Daha sonra Prezident İlham Əliyev Anıtqəbirin muzeyi ilə də tanış oldu.

Burada Mustafa Kamal Atatürkün həyat və fəaliyyətindən, onun Türkiyə Cümhuriyyətinin qurulmasındakı tarixi xidmətlərindən bəhs edən eksponatlar, sənədlər qorunub saxlanılır.